## Əsarətdə qalan Güney Azərbaycan abidəsi

Miyana bölgəsində "Qız_körpüsü" acınacaqlı durumdadır.
Qızılüzən çayının üstündəki bu körpü Tehran-Miyana yolunun üzərində yerləşir.
Vlll əsrə məxsus bu körpü, 87 sayla Sasanilərin adına qeydiyyatdan keçib. Sasanilər dövründə isə heç "qız" sözü olmayıb.
Azərbaycan türklərinin memarlıq sənəti olan bu körpü çox hadisələrin şahidi olub.
1946-cı il dekabrın 12-də Azərbaycan Demokrat Firqəsinin mərkəzi orduya qarşı geri çəkilərkən buna imkan yaratmaq üçün Pişəvərinin əmri ilə körpü dağıdılıb. Bundan sonra körpü əsaslı təmir olunmayıb. Baxımsızlıqdan körpü hazırda belə acınacaqlı vəziyyətdədir.







